

**Mustafa Çəmənli**

# NƏŞRİYYATLARDA KEÇƏN ÖMRÜM

**(Xatirələr)**

**(əvvəli ötən şənbə saylarımızda)**

Firidun bəy redaktəmdən çox razı qalmışdı. Hamının "çətin adam" hesab etdiyi hörmətli musiqişünasımız irad və təkliflərimi də səbirlə dinləyib nəzərə almışdı. İşlər qaydasınca gedirdi. Ancaq sən demə, bu yerdə mən "Allah qoysa" deməyi unudubmuşam.

Deyirlər, baməzə bir adam olan Abdal Qasım hardansa başıılovlu evə gəlir. Bərk acıbmış. Arvadını səsləyir:

- Az, yeməyə nə var? Gətir yeyəcəm, ölürəm acınnan.

Arvad deyir, əşi, hara tələsirsən, Allah qoysa de, bir bismillah de. Abdal Qasım deyir ki, az, dədəyin goru haqqı, Allah qoysa da yeyəcəm, qoymasa da. Elə bu vaxt darvaza döyülür. Abdal Qasım qabağına qoyulmuş nimçəni kənara itələyib darvazaya doğru gedir. Darvazanı açan kimi qorodovoylar kişini götürüb aparırlar. Abdal Qasım bir də üç ildən sonra qayıdır. Darvazanı döyür, arvadı səslənir:

- Ay gələn, kimsən?

Abdal Qasım deyir:

- Az, aç qapını, Allah qoysa, ərindi.

Firidun Şuşinskinin kitabı planda nəzərdə tutulan həcmdən beş çap vərəqi artıq çıxmışdı. O zaman planda nəzərdə tutulduğundan nəinki beş çap vərəqi, yarım çap vərəqi üçün də rəsmi icazə almalıydın. Mən öz vəzifə borcumu yerinə yetirib Əjdər Xanbabayevə dedim ki, bəs, bəyin kitabı beş çap vərəqi artıq çıxıb. O da mənə dedi ki, bir az şəkillərdən azalt, nəzərdə tutulduğundan bir belə artıq çap eləyə bilmərik.

Firidun bəy şəkilləri nömrələyib bir çay qutusuna yığmışdı. Mən 177 şəkli bir-bir nəzərdən keçirib kitabın məzmununa daha uyğun gələnləri və vacib olanları seçdim.

Bir gün daxili telefon zəng çaldı. Dəstəyi götürdüm:

- Eşidirəm, Əjdər müəllim.

- Mustafa, Firidun bəyin işini götür gəl

Firidun bəyin qovluğunu və şəkilləri götürüb düşdüm aşağı. Firidun bəylə görüşüb qovluğu, şəkillər yığılmış çay qutusunu qoydum qarşısına. Qovluqdakı əlyazması ilə tanış olmuşdu, qalmışdı şəkillər.

O, çay qutusunu qarşısına çəkdi.

- Firidun bəy, kitabınız planda nəzərdə tutulduğundan beş çap vərəqi artıq çıxıb, ona görə də şəkilləri bir az azaltdıq.

- Bu sözləri demişdim ki, qanı üzünə vurdu. Qəzəblə:

- Mən day kitab-zad çap elətdirmək istəmirəm, - deyə şəkilləri qutuya yığmağa başladı.

Əjdər müəllim ona irad tutdu:

- Belə kəmhövsələlik eləyirsən deyin, həmişə başın ağrıyır də

Firidun Şuşinski cavab verməyəndə mən onun qovluğunu götürüb kabinetdəki hündür dəmir seyfin üstünə atdım. Heç nədən o qədər hirslənmişdi ki, hətta qovluğunu da unutmuşdu. Daha bir söz deməyə ehtiyac qalmamışdı. Firidun Şuşinski şəkil dolu çay qutusunu qoltuğuna vurub getdi. Əjdər müəllim dedi ki, darıxma, yoluna qoyarıq.

O gündən Firidun bəyin dilinin "əzbəri" oldum. İşin bu yerə çatmasında məni günahkar sayırdı. Təəssüf ki, nəşriyyata ancaq maaş xətrinə gələn, demək olar, baş girləyən, kitab-dəftər sevgisi olmayan bəzi "dostlarım" da yanan ocağı söndürmək əvəzinə, çırpı atıb körükləyirdilər. Mənim isə nə kiməsə yarınmağa, nə də özümü müdafiə etməyə vaxtım vardı. Allah şahiddi ki, Firidun Şuşinskinin kitabı üzərində nə qədər çalışmışdım. Amma deyir, sən saydığını say, gör bəndə nə sayır.

Allah hərəyə bir cür xasiyyət verir, onu dəyişməyə, özününküləşdirməyə heç kəsin gücü çatmaz. Unudulmaz bəstəkarımız Süleyman Ələsgərovun xanımının yasında Firidun Şuşinskinin dostu Əhəd müəllimlə yanaşı oturmuşdum. Bəydən söz düşəndə dedi ki, Firidunla əlli il dostluq etmişik, fasilələrlə onun iyirmi beş ilini küsülü olmuşuq. Küsülü olsaq da, mən Firidun bəyə qətiyyən kin-küdurət bəsləmirdim, əksinə, bəzi radio verilişlərimdə onun kitablarından misal çəkir, adını hörmətlə anırdım. Eşitmişdim ki, o da mənim bu hərəkətimdən təəccüblənirmiş.

- Əə, mən bunu məclislərdə məşhuricahan eləmişəm, bu da məni tərifləyir.

Əlbəttə, mən verilişlərimdə qəsdən, necə deyərlər, ona yarınmaq üçün adını çəkmirdim. Axı, məndən əvvəl hansısa sənətkar barədə mötəbər fikir söyləmiş atam yaşında olan qələm sahibinin xidmətini necə dana bilərdim?

Təəssüf ki, keçmişdə də, indi də ali dəyərlərdən yazan, ağızdolusu fəzilətdən, qəbahətdən danışan bəzi qələm sahibləri var ki, kiçik bir irad bildirdiyinə görə, nəinki səni, nəsil-kökünü yer üzündən silib atmaq istəyir. Allah rəhmətinə getsən belə, səndən əl çəkmir, əlinə fürsət düşən kimi qəbirdən çıxardıb xeyirdə-şərdə rüsvay edir. Belə alim, belə yazıçı-şairlərdən əlhəzər!

Nəsə, mən nə vaxtsa Firidun Şuşinski ilə yenə qarşılaşacaqdım, ancaq xeyli sonra.

***

O zaman yaşa dolmuş yazıçılarımız, demək olar, nəşriyyata gəlmirdilər, ancaq diqqətdən də kənar deyildilər. Xalq şairi Rəsul Rzanın 5 cildliyi bizdə çapa hazırlanırdı. Mən onu nəşriyyatda poeziya şöbəsinin böyük redaktoru Müzəffər Şükürlə görmüşdüm. Əlbəttə, biz onu görkəmli bir şair kimi hələ orta məktəb şagirdi olarkən dərsliklərdən tanıyırdıq. Mən Bakıya gələndən sonra onu dəfələrlə Sabir Poeziya günlərində, filarmoniyada şeirlərini öz dilindən də eşitmişdim. Görkəmli şairin Mikayıl Müşfiqdən bəhs edən "Qızılgül olmayaydı" poeması mənə çox təsir eləmişdi.

Doğrusu, indi ilini, gününü xatırlaya bilmirəm, ancaq yetmişinci illərin axırları olduğu dəqiq yadımdadır. "Leçkomissiya"da yatan unudulmaz müğənnimiz Şövkət Ələkbərovanı görməyə getmişdim. Məqsədim məndə olan bəzi tarixi şəkillərdəki şəxsiyyətləri dəqiqləşdirmək idi. Foyedə tarzən Bəhram Mansurovla hörmətli şairimiz Rəsul Rzaya rast gəldim.

Bəhram Mansurov:

- Mustafa, Rəsul müəllimlə tanışsınız? - deyə soruşdu.

- Rəsul müəllimi kim tanımır?! - deyə ustad şairlə əl tutdum. Bəhram Mansurov:

- Rəsul müəllim, rəhmətlik Cahan Talışinskayadan məqalə yazan bu oğlandı, - dedi.

Bu sözlərdən sonra Rəsul müəllim əli-mi yumşaq ovcunun içində xeyli saxladı. Nüfuzedici ala gözləri üzümə dikildi. O vaxta qədər bu qədər dərin, nüfuzedici gözlər görməmişdim. Sağollaşıb onlardan ayrıldım. Sonralar bildim ki, Rəsul müəllim ən çətin bir dövrdə (1938) Azərbaycan Dövlət Filarmoniyasının direktoru olub. O zaman ki, Cahan Talışinskaya filarmoniyanın ən sevilən müğənnilərindən biri idi. Və onun Qazaxıstanın Petropavlovski rayonuna sürgün olacağı günə hələ çox vardı.

Mən bu gün də Rəsul müəllimin kitablarını vərəqləyəndə, şeirlərini oxuyanda onun nüfuzedici baxışlarını üzərimdə hiss edirəm.

***

Xəyalımdan çox-çox dəyərli insanlar gəlib keçir. Onlardan biri də Xalq yazıçısı İlyas Əfəndiyevdir. İlyas Əfəndiyevi xatırlayarkən qəlbimdə çox isti, ılıq duyğular ləpələnir. Bircə anda xəyalımın quş qanadlarında Çəmənliyə - doğma kəndimizə dönürəm. Mənim xəyalımda indi yazın ılıq çağıdı. Yamyaşıl otlar torpağın bağrından püskürərək qalxıb, ağaclar yarpaqlayıb, çəmənliklərdə rəngbərəng yabanı çiçəklər bərq vurur. Yuva quran quşların civiltisi bağça-bağı başına götürüb. Mən isə həyətimizdəki ot tayasının günəvərində oturub İlyas Əfəndiyevin "Söyüdlü arx" romanını oxuyuram.



**İlyas Əfəndiyev**

O zaman romanı oxuduqca ədəbiyyat həvəskarı olan bir məktəbli kimi keçirtdiyim hissləri indinin özündə, yaşımın bu çağında ifadə etməyə söz tapmıram. Zamanmı dəyişib, insanlarmı başqalaşıb? Bilmirəm! Mənim yaşıdlarım təzə çapdan çıxmış elə nəsr əsəri, poeziya nümunəsi olmazdı ki, onu oxumasın. Biz ədəbiyyatsız, sözün böyük anlamında, yaşaya bilmirdik. O illərdə mənim və yaşıdlarımın sevdiyi yazıçılardan biri və bəlkə də, birincisi İlyas Əfəndiyev idi. Təbii ki, İlyas müəllimin nəşr olunmuş hər bir kitabı kəndimizə də gəlib çıxırdı və biz onu növbə ilə birnəfəsə oxuyurduq. İlyas müəllimin "Körpüsalanlar", "Dağlar arxasında üç dost" romanlarını da mən hələ orta məktəb şagirdi olarkən kəndimizdə oxumuşam.

Hələ televiziyanın kəndə ayaq açmadığı dövrdə tez-tez radioda İlyas müəllimin əsərləri səsləndirilərdi. Nədənsə bu radio tamaşalarını axşamçağı səsləndirərdilər. Tamaşada cərəyan edən hadisələr, aktyorların gözəl, ahəngdar səsləri o qərib axşamları bir az da qəribləşdirərdi. Axşamın ala-toranlığında səslənən bu tamaşalar adamın ruhuna çox qəribə, unudulmaz bir ovqat gətirirdi. Bu ovqat İlyas Əfəndiyevin əsərlərindən bizim ruhumuza köçən çox doğma, çox lirik və həzin bir ovqat idi. Çünki İlyas Əfəndiyevin müasir və tarixi mövzuda yazdığı əsərlər milli və bəşəri ovqata köklənmiş, yanar sənətkar qəlbinin hərarəti ilə süslənmiş əsərlər idi.

Sonralar, 70-ci illərdə mən Bakıya gələndə ilk dəfə İlyas müəllimi Nizami muzeyinin qarşısında kitablara baxa-baxa dənizkənarı parka tərəf addımlayan görmüşəm. Əsərlərini oxuyub uzaqdan-uzağa sevdiyin bir yazıçını həyatda görmək o zaman bizim üçün çox xoş bir təsadüf idi. İlyas müəllim çox gümrah bir yaşındaydı. Əlli beş yaşlarında yaraşıqlı bir kişiydi. O anda İlyas müəllimin yanından, bəlkə, yüzlərlə oxucusu ötüb keçirdi. Onlardan birisi də mən idim. Mən bir müddət İlyas müəllimə durub baxdım və nədənsə o anda mənə elə gəldi ki, o, ürəyində oxuyur.

Mən İlyas müəllimlə şəxsən tanış olmasam da, onu pyeslərinin ilk tamaşalarında, Yazıçılar İttifaqının tədbirlərində tez-tez görərdim.

Akademik Milli Dram Teatrında İlyas müəllimin "Mahnı dağlarda qaldı" tamaşa-sındakı o böyük anşlaq yaxşı yadımdadı. Biz universitet tələbələri də böyük həyəcanla tamaşanı izləyirdik. Bir gözümüz də lojada oturub gözlərini səhnədən çəkməyən İlyas müəllimdə idi. Biz o anda xoşbəxt idik ki, İlyas müəllim kimi yüksək mədəniyyətli bir yazıçı-dramaturqun müasiriyik. Biz onun "Sən həmişə mənimləsən", "Məhv olmuş gündəliklər", "Büllur sarayda", "Şeyx Xiyabani", "Xurşidbanu Natəvan" pyeslərinin tamaşasına baxanda da həmin o hissləri keçirmişik. Böyük yazıçının Sovet dövründə "Sən həmişə mənimləsən" pyesinin tamaşasında Arazın o tayına müraciətlə deyilən sözlər o zaman bizi çox həyəcanlandırır, Cənub həsrətimizi bir az da alovlandırardı.

İlyas müəllimin hər bir yazısından, xüsusilə "Geriyə baxma, qoca", "Üçatılan" kimi əsərlərindən bizim qəlbimizə milli qürur, milli və bəşəri hisslər süzülüb.

Yadımdadı, İlyas müəllimin "Geriyə baxma, qoca" romanı "Yazıçı" nəşriyyatında çapa hazırlanırdı. Əsərin korrekturasını vərəqləyən nəşriyyatın direktoru Əjdər Xanbabayev üzündə qəribə bir təbəssüm, çox mənalı şəkildə: "İlyas müəllim romanına çox gözəl ad seçib. Allah bilir, ürəyində "Geriyə baxma, qoca" deyəndə nəyi nəzərdə tutur. Çoxmənalı addı. Düşündürəndi" - dedi.

Sonralar - 80-ci illərdə "Yazıçı" nəşriyyatında İlyas müəllimin altı cildliyi nəşr olunurdu. Bir gün nəşriyyatın bədii ədəbiyyat redaksiyasına getmişdim. Baş rəssamın stolunun üstündə İlyas müəllimin əllə çəkilmiş kiçik bir portretini gördüm. Baş rəssam Etiram Lazımovdan soruşdum ki, İlyas müəllimin bu şəklini kitabda verəcəksiniz? Dedi, yox, elə-belə çəkmişik. Dedim: - Etiram, şəklin arxasını yaz, yadigar olaraq İlyas müəllimin özünə göndərək. - Etiram şəkli səliqəyə salıb, arxasını yazıb mənə verdi. Mən İlyas müəllimin həmin portretini kitabının redaktoru Cavad Zeynalla ona göndərdim.

İlyas müəllim artıq çoxdan əbədiyyətə qovuşub. Ancaq onun yazdıqları unudulmaz və əbədidir. Onun əsərlərini oxuyacaq hər bir nəsil üzündə nurlu təbəssüm, mənalı bir ovqatla deyəcək: "Unuda bilmirəm".

**(ardı gələn şənbə sayımızda)**